Ədalət 2019.- 26 sentyabr.- S.6.

# Oqtay Rzasız 40 gün

**Hava limanında maşına oturub şəhərə gələndə oğlumdan soruşdum ki, nə var, nə yox, işlərin necə gedir? "Şükür... - deyib, xeyli susdu, sonra, - şair Oqtqy Rza da dünyasını dəyişdi," - dedi. "Necə yəni? O ki xəstə-zad deyildi. Bəlkə, bir qəza, filan"... "Yox, öz əcəli ilə keçindiyini bildirdilər". Peyğəmbəranə sifəti, mehriban baxışları gözlərim önündə canlandı, dadlı-duzlu sözləri, zarafatları yadıma düşdü. Həmyerlisi Xəlil Rza Ulutürk kimi, hamıya soyadındakı -ov, -yev şəkilçisini ataraq müraciət edərdi. Tanıdıqları adamların, demək olar ki, hamısına şeirlər yazmış, onları "Adlı, ünvanlı sətirlər" kitabında çap etdirmişdi. Qanı-canı ilə yurda bağlı adam idi. Xeyirdə, şərdə həmişə yuxarı başda olardı. Dünya şöhrətli bəstəkar Arif Məlikovun Salyan haqqında bəstələdiyi mahnının sözləri Oqtay Rzanın idi.**

Oqtay Rza şair olmaqla yanaşı, həm də müəllim idi. ADPU-da uzun illər zəhmət çəkmişdi. Müəllimlər ordusunun yetişməsində böyük rolu olmuşdu. Respublikamızın elə rayonu olmaz ki, orada onun yetirmələri olmasın. Sözün əsl mənasında müəllimlər müəllimi idi. Çoxillik səmərəli fəaliyyətini nəzərə alıb Azərbaycan Respublikasının Əməkdar müəllimi fəxri adına layiq görmüşdülər. Geologiya-mineralogiya elmləri üzrə fəlsəfə



doktoru, işlədiyi kafedranın dosenti idi. Ölkəmizin ərazisindəki zəngin təbii sərvətlərin kəşfində onun da müəyyən əməyi vardı. Şeirləri isə ürəklərə məlhəm idi. "Mikayıl Müşfiq" və "Qızıl qələm" mükafatlarına layiq görülən şair poeziyada öz sözünü dedi və neçə-neçə kitabını yadigar qoydu. Oqtay müəllimlə həmsöhbət olmaq adama rahatlıq gətirirdi. Sanki dincəlirdin, dərddən-qəmdən uzaqlaşırdın. Çünki o özü nikbin adam idi. Nə deyirdisə, ürəkdən deyirdi. Amma neyləmək olar?! Ömrünün 85-ci payızına az qalmış dünyanı tərk etdi. Mehriban, səmimi bir insan, alim, şair kimi dostları həmişə onu yad edəcək, xatırlayacaqlar. Neçə illər əvvəl bir dost kimi ona həsr etdiyim şeirimi indi də bu nurlu insanın əziz xatirəsinə ünvanlamaq istəyirəm.

## *Deyərəm ki...*

**Çöhrəsində nur işığı,
Xeyrin-şərin yaraşığı,
Tərəzidə haqq aşığı -
Soruşsalar ki, kimdir o?
Deyərəm ki, şair Oqtay Rzadır.**

**Bu torpağa, elə bağlı,
Dağdan axan selə bağlı.
Şirvan, Muğan, Milə bağlı.
Soruşsalar ki, kimdir o?
Deyərəm ki, şair Oqtay Rzadır.**

**Gah dağdadır, gah aranda,
Gah burdadır, gah o yanda,
Yarı canı Salyanında.
Soruşsalar ki, kimdir o?
Deyərəm ki, şair Oqtay Rzadır.**

**Muğan boyda ürəyi var,
Hələ neçə diləyi var.
Nəğmələri gülöyşə nar -
Soruşsalar ki, kimdir o?
Deyərəm ki, şair Oqtay Rzadır.**

**Yaşın bilir süxurun da,
Dağın, yolun, cığırın da,
Dərənin də, çuxurun da -
Soruşsalar ki, kimdir o?
Deyərəm ki, şair Oqtay Rzadır.**

**Təbiəti Kürü kimi,
Hərdən dinər sarı simi,
Müəllimlər müəllimi -
Soruşsalar ki, kimdir o?
Deyərəm ki, şair Oqtay Rzadır.**

**Seyran CAVADOV**